Ədəbiyyat qəzeti
24 dekabr / 2020

# Professor Elman Quliyevin "Abay Kunanbayev" kitabı TÜRKSOY-un layihəsi çərçivəsində Ankarada nəşr olunub




TÜRKSOY Daimi Şurasının qərarı ilə 2020-ci il qazax şairi Abay Kunanbayevin anadan olmasının 175-ci ildönümü münasibətilə "Abay Kunanbayev ili" elan olunmuşdur. Bu səbəbdən TÜRKSOY-un təşkilati dəstəyi ilə ortaq türk mədəniyyətini, ədəbiyyatını tanıtmaq, araşdırmaq, qorumaq, türk respublikaları arasında təbliğ etmək və s. çərçivəsində Abay Kunanbayevə həsr edilmiş elmi-mədəni tədbirlər planı hazırlanmış və türk respublikalarında bir sıra konfranslar keçirilmişdir. TÜRKSOY tədbirləri sırasında XIX əsr qazax modern ədəbiyyatının qurucusu, bu ədəbiyyatın yeni məzmun, yeni forma qazanmasında müstəsna xidmətləri ilə seçilən qüdrətli realist şair və nasir, o cümlədən tərcüməçi, rəssam və musiqiçi kimi tanınan Abay Kunanbayevə həsr edilmiş "Abay Kunanbayev" kitabı da nəşr edilmişdir. "Abay Kunanbayev" kitabı TÜRKSOY-un, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Qazaxıstanın Azərbaycandakı Səfirliyinin sifarişi ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru, Azərbaycanda fəaliyyət göstərən "TÜRKSOY kafedrası"nın müdir müavini Elman Quliyev tərəfindən hazırlanmış və Ankarada "Ankarat matbaaçılık" Yayım Evi tərəfindən çap edilmişdir.

Kitaba TÜRKSOY-un baş katibi Düsen Kaseinov ön söz yazmış, kitabın türk dünyasında Abay Kunanbayevin təbliği sahəsində əhəmiyyətli rol oynayacağını xüsusi qeyd etmişdir.

Kitabda Abay Kunanbayevin həyatı, lirikası, poema və nəsr yaradıcılığı geniş araşdırılmış, bu sənətin mövzu, forma, dil, üslub, vəzn xüsusiyyətləri, həmçinin xalq şeiri ənənələrinə bağlılığı, realist təsvir üsullarının zənginliyi, maarifçilik ideyalarının təbliği, ictimai bərabərsizliyə, sosial eybəcərliyə, savadsızlığa, cəhalətə, xurafata tənqidi münasibəti və s. məsələlər yer almışdır. Abay Kunanbayevin Azərbaycan dilinə tərcümə olunmuş şeir, poema və nəsr nümunələri kitaba daxil edilmişdir.